# Azərbaycan və Finlandiya nümayəndələri COP29-a hazırlığı müzakirə ediblər

**COP29-un Rəyasət Heyətinin nümayəndələri Finlandiyanın ATƏT-in yanındakı daimi nümayəndəsinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə COP29-a hazırlıq prosesini müzakirə ediblər.**

Trend bu barədə COP29-un Rəyasət Heyətinin üzvü, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidmətinin Beynəlxalq əməkdaşlıq və ictimaiyyətlə əlaqələr sektorunun müdiri Fuad Hümbətova istinadən xəbər verir.

"Finlandiyanın ATƏT-in yanındakı daimi nümayəndəsi Vesa Hakkinnenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə COP29-a hazırlıq prosesi üzrə çox məzmunlu müzakirə apardıq", - o deyib.

Görüşün əhəmiyyətini izah edən F.Hümbətov Finlandiyanın 2025-ci ildə ATƏT-ə sədrlik edəcəyini, Azərbaycanın isə bu beynəlxalq təşkilatlarla müxtəlif proqramlar üzrə əməkdaşlıq etdiyini qeyd edib.

Xatırladaq ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (COP29) Tərəflər Konfransının 29-cu sessiyası bu ilin noyabrında Azərbaycanda keçiriləcək. Bununla bağlı qərar COP28-in ötən il dekabrın 11-də Dubayda keçirilmiş plenar iclasında qəbul olunub. İki həftə ərzində Bakı dünyanın mərkəzinə çevriləcək və 70-80 minə yaxın xarici qonağı qəbul edəcək.

Azərbaycan.- 2024.- 20 aprel, № 79.- S.10.